*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 65-73*
https://doi.org/10.62837/2024.6.65

**MƏLƏK MUXTAROVA**
**Azərbaycan Dillər Universiteti**

# GENDER DİLÇİLİYİNDƏ ANDROSENTRİZMİN İFŞASI VƏ ONUN MÜASİR İNGİLİSDİLLİ QƏZET DİSKURSUNA TƏSİRİ
## (məcaz dil elementlərinə nəzərən)

**Açar sözlər:** gender dilçiliyi, androsentrizm, patriarxal dominantlıq, ingilisdilli qəzet diskursu, məcaz dil elementləri.

**Ключевые слова**: гендерная лингвистика, андроцентризм, патриархальная доминанта, англоязычный газетный дискурс, образные языковые элементы.

**Key words:** gender linguistics, androcentrism, patriarchal dominance, English newspaper discourse, types of figurative language.

Gender dilçiliyi və ya digər adı ilə linqvistik genderologiya son iki onillikdə özünün ən intensiv inkişaf mərhələsinə qədəm qoymuş və hal-hazırkı araşdırma multispektrliliyi ilə çox geniş aspektli məsələlərin fərqli rakurslardan, yəni həm sosiolinqvistik, həm psixolinqvistik, həm koqnitiv, həm diskurs nəzəriyyəsi təlimi və s. bu kimi dilçilik araşdırmaları istiqamətindən təhlil həllininin mümkünlüyünə şərait yaratmışdır. Belə ki, ilk olaraq, gender dilçiliyi daha çox sosiolinqvistikanın tədqiqat dairəsinə aid edilirdi, daha çox qadın və kişi nitqi kimi fərqləndirilən və qarşı-qarşıya qoyulan idiolekt özəlliklərinin sosiolinqvistik aspektdə müqayisəsi hədəf alınırdı (məsələn, [2; 301-307]; [5, 461-490]; [10; 2011-2016]). Daha dəqiq desək, ilkin dönəmdə qadın haqqlarının sosial reallaşma və hüquqi tənzimlənməsi aspektində linqvistikanın yedək (əlavə) təhlilləri kimi nəzərdən keçirildisə, zamanla bu yanaşma kökündən dəyişməklə gender dilçiliyinin polidisiplinar və multispektrli sahə kimi təkcə fərqli dilçilik istiqamətlərinin uğurlu sintezi əsasında nəşət tapmasını mümkün etmədi, eləcə də sosiologiya, statistika, psixologiya, tarix, politologiya və s. sahələrlə aktiv qarşılıqlı əməkdaşlıq sayəsində yeni araşdırma tendensiyalarının ərsəyə gəlməsini mümkün etdi (bu haqda daha ətraflı bax: [22, c.7-58]). Gender dilçiliyinin araşdırma sahələrinin genişlənməsi, tədqiqat arsenalının zənginləşməsi, habelə obyektiv olaraq, genderologiyanı maraqlandıran məsələlərin spektrinin yetərincə dəyişməsi (yəni, feministik nəzəriyyələrlə paralel olaraq, gender identikliyinin fərqliliyi, gender identikliyinin seçimi və s. bu kimi məsələlərin ortaya çıxması, daha ətraflı bax: [21, c.60-73]) gender dilçiliyinin araşdırma sahəsinin əhəmiyyətli dərəcədə genişlənməsini mümkün etdi. Lakin bu inkişaf mərhələsinə gəlib çatana qədər gender dilçiliyi üç əhəmiyyətli təkəmül mərhələsindən keçmişdir ki, bu da nəticədə gender asimmetriyası, genderlekt, androsentriklik, gender displeyi, kod dəyişməsi və s. bu kimi yeni anlayış və araşdırma spektrlərin formalaşmasını mümkün edən linqvistik gendeologiya təliminin formalaşmasını mümkün etmişdir.

Gender linqvistikası, bir sıra dilçilərin ortaq rəyinə görə, üç əsas inkişaf mərhələsindən keçmişdir [24]; [14, s.120-121] ; [20, s.91]. Lakin həmin mərhələlərin

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 65-73*
mahiyyəti və davam etmə müddəti (pediodlaşması) ilə bağlı fikirlərdə yekdillik müşahidə edilmir. Belə ki, əksər hallarda 1) ilkin mərhələ – bioloji determinizm kimi səciyyələndirildiyi halda, 2) ikinci mərhələ keçid dövrü kimi qiymətləndirilir və yalnız 3) üçüncü mərhələ əsl gender dilçiliyi tədqiqatlarının vüsət aldığı mərhələ statusunda nəzərdən keçirilir [23]. Digər tədqiqatlarda birinci mərhələ qadın və kişinin sosial rollarının müəyyənləşdirilməsi əsasında, qadın dili və kişi dili anlayış fərqləndirilməsinin təsbiti dövrü kimi xarakterizə edilir. Növbəti mərhələ isə qadın və kişi dilinin cinslərlə bağlı gender rollarının stereotipikləşməsinin tədqiqi mərhələsi kimi səciyyələndirilir. Üçüncü mərhələdəki aparıcı tendensiyalar isə nitq davranışlarındakı fərqliliklərin koqnitiv aspektdən təhlili və əsaslandırılması istiqamətlərinin inkişafı dövrü kimi dəyərləndirlir [14, s. 119-121]. Eləcə də digər tədqiqatlarda aşağıdakı istiqamət və mərhələlər fərqləndirlir: 1) sosial və psixolinqvistik istiqamətləri; 2) linqvokulturoloji araşdırmalar (o cümlədən gender stereotiplərini əks etdirən metaforaların, frazeoloji vahidlərin; feminliyin, maskulinliyin verbal ifadəsini əks etdirən klişe və qəlibləşmələrin tədqiqi) mərhələsi; 3) qadın və kişi arasındakı kommunikasiyanən fərqli aspektlərini tədqiq edən kommunikativ-diskursiv mahiyyətli araşdırmalar mərhələsi [20, s.91].

Biz də öz növbəmizdə gender dilçiliyi araşdırmalarını tarxi periodlaşma baxımından, habelə araşdırma spesifikasına nəzərən fərqli təsnifat qruplaşdırmalarında təhlil edilməsini daha məqsədəuyğun hesab edərək ilk olaraq tədqiq tarixində aşağıdakı periodlaşmanın aparılmasını önə sürürük. 1) İlkin mərhələ: qrammatik cins fərqləndirilməsi ilə səciyyələnən bu dövr ən uzun tarixi mərhələni ehtiva etməklə antik dövrlərdən XX əsrin əvvəllərinə qədərki dövrü əhatə edir. Belə ki, hələ antik yunan dilçiliyində ilk dəfə olaraq, Protaqor cinslərin dildə ifadəsinin fərqliliyi məqamını o dövrün (yunan fəlsəfəsi kontekstində aparılan) linqvistik səpkili dəyərləndirmələrinə gətirmişdi [19, s.125]. Zamanla Aristotel tərəfindən mənimsənilmiş bu fikirlər daha sonralar Qədim Roma dilçisi Mark Terrensi Varron tərəfindən inkişaf etdirilmişdir. Daha sonralar Y.Qrim, G.Paul və bir çox başqaları dildə cins fərqliliyinin ifadəsi məsələsinin müzakirələrinə qoşulsalar da [26], bunlar əsl mənasında gender dilçiliyinin yaranması anlamına gəlmədən, sadəcə olaraq bu yeni dilçilik istiqamətinin ilkin nəzəri platformunun formalaşdırılmasına xidmət etmişdi. Bu səbəbdən də bu mərhələni şərti olaraq, qrammatik formalizm dövrü kimi səciyyələndirə bilərik. Bu mərhələdə qrammatik səviyyədə təzahür tapan cins fərqliliyinin sosial-kulturoloji reallıq olan genderlə eyniyyət təşkil etmədiyinin fərqinə varılmırdı.

Gender dilçiliyinin ikinci mərhələsi artıq bilavasitə gender münüsibətlərinə baxış bucağının dəyişməsi dövrünə təsadüf etmişdir. Belə ki, qadınların haqqlarının qorunması yönündə aparılan mübarizə cəmiyyətdəki ideoloji meynstrimi dəyişməklə əsrlərlə qəlibləşmiş maskulin dominantlığı ideyasının bünövrəsini kökündən silkələməyə müvəffəq oldu. Bu silkələnti hələ XX əsrin 60-70-ci illərindəki kimi güclü rezonans doğurmasa da, elmi düşüncədə, ictimai təfəkkürdə artıq geridönüşü olmayan proseslərin əsası qoyuldu. Bu mənada təsüdüfi deyil ki, öz mahiyyəti etibarı

ilə ideoloji dəyişimlərin təsirinə ciddi şəkildə məruz qalna bir humanitar elm sahəsi kimi dilçilik də bu qlobal tendensiyadan geri qalmayaraq, gender bərabərliyi ideyasının ilkin işartılarının linqvistik təhlil müstəvisinə keçidini sanksiyalaşdırdı. Bu mərhələdə E.Sepirin, O.Yespersenin və bir çox başqalarının dilçilik araşdırmalarında məsələyə yeni aspektdən baxış nümayiş etdirilməyə başladı. Bu mərhələnin bilavasitə qadın haqqları uğrunda mübarizə fonunda qərarlaşmasından çıxış etsək, habelə dilin androsentrik mahiyyətinin (belə demək olarsa) kəşfi və etirafı fonunda inkişaf etməsinə əsaslansaq, o zaman bu dövrün məhz, androsentrikliyin ifşası dövrü kimi səciyyələndirilməsinin yanlış olmayacağın qənaətinə gələ bilərik. Xatırladaq ki, dilin anrosentrik mahiyyətinin təsbiti, məhz, XX əsrin əvvəllərində mümkün olmuşdur. Belə ki, 1911-ci ildə Şarlotta Perkins Gilman tərəfindən qələmə alınmış "Kişi tərəfində yaradılmış Dünya və ya bizim androsentrik mədəniyyətimiz" [15] adlı araşdırmasında insan dilinin öz mahiyyəti etibarı ilə minillikləri ötən kişi dominantlığının verbal təzahürü kimi, kişi mərkəzçi mahiyyətə malik olduğunu əsaslı dəlillərlə sübut etmişdi.

Xatırladaq ki, androsenrizm yunan dilindəki andros "kişi" və centrium/centric "mərkəz", "mərkəzi" sözlərinin birləşməsi əsasında yaranmış termin olub "kişi mərkəzçiliyi" anlamını ifadə edir. İngilis dilində ilk dəfə 1887-ci ildə işlədilməsinə baxmayaraq, bu istilah, məhz, Ş.Perkins Gilman tərəfindən elmi dövriyyəyə daxil edilib populyarlaşdırılmışdır. [3]. Ş.Perkins Gilman təliminə görə, hələ Misir ehramlarında tapılmış qədim əlyazmalarda əksini tapan antik mədəniyyət gerçəkliyinə görə, bəşəriyyət yaranışından müasir dövrünədək androsentrik təbiətə malikdir. Androsentriklik, Ş.Perkins Gilmana görə, kişinin dünya reallığının qavrayış sisteminin yaradıcısı statusuna qaldırmaqla, ətraf gerçəkliyin, məhz, kişilərin aksioloji standartları prizmasından dəyərləndirilməsinə istinad edir (daha ətraflı bax: [15] ). Müasir tədqiqatçılardan A.Beyli, M.Lafrans və J.Dovidioyaya görə isə, androsentrizm –elə bir unikal gender öngörüşü formatıdır ki, bu qavrayış formatına görə, kişilərə qeyd-şərtsiz üstünlük və qadınlara qarşı təkəbbür və etinasızlıq norma şəklində qəbul edilir [4]. Yəni, kişilər ətraf reallığın ölçü vahidi, dəyərləndirmə filtri, mötəbər senzoru kimi qəbul edilir.

C.Hibbs isə androsentrizmin nə az-nə çox implisit formalı qadın nifrəti, qadın əleyhidarlığı təcəssümü kimi dəyərləndirmiş və patriarxal hökmranlığın izlərinin hətta iyirmi birinci minilliyin elm, təhsil, media, siyasət və bir çox digər sahələrində implisit və ya eksplisit formada təzahür tapmaqda davam etdiyini vurğulamışdır [7 ,s.94-101]. Konkret olaraq, ingilisdilli qəzet diskursunda yer alan məcaz dil elementlərin, hələ də işləkliyini sürdürən və aşkar seksist-mizoqonist mahiyyət kəsb edən bir sıra klişeləşmiş ifadələrin günümüzdə də aktiv şəkildə istifadə edilməkdə olduğunu nəzərə alsaq, androsentrikliyin mentallıqda, düçüncədə çox dərin izlər qoyduğu qənaətini bir daha yəqinləşdirmiş olarıq. Məsələn, Britaniya qəzet diskursundan bir nümunəyə diqqət edək:

"***A woman's tongue wags like a lamb's tail***", *so an old English saying goes, and if you deign to type "why do women ..." into Google's search bar, the search*

*engine will finish your sentence accordingly with "**talk so much**"* [9]. Göründüyü kimi, ingilis frazeologiyası üçün xarakterik olan androsentrik təkəbbür fenomeni müasir qəzet diskursunda da eyni anlamda işləkliyini davam etdirməkdədir.

Xatırladaq ki, gender asimmetriyasının, demək olar ki, bütün elmə məlum olan dillər üçün ortaq səciyyəvi cəhət olduğunu, yəni özü ilə semantik universallıq faktını təcəssüm etdirdiyini ən əyani şəkildə sübuta yetirən dil faktları, məhz dilin linqvokulturoloji bazasının özülü sayılan parameoloji vahidlər və frazeologizmlərdir. Belə ki, aparılan çoxsaylı linqvistik araşdırmaları androsentrizmin metaforik dillə ifadəsində frazeoloji və parameoloji vahidlərin digər dil elementlərindən [1] müqayisədə daha öncüllük təşkil etdiyini ortaya qoyur (ingilis frazeologizmlərinin androsentrikliyi ilə bağlı daha ətraflı bax: [11, s.68-77]; [13, s.165-172] ; [12, s.60-66]). Nümunədə qadının kommunikasiya prosesində kişiyə nisbətdə daha izafiliyini, daha yüksək enerji sərfiyyatını ortaya qoyması qiymətləndirməsi sırf kişi nöqteyi nəzərindən aksioloji standartlaşmanın nümayişindən başqa bir şey deyil. Yəni, əksinə standartlaşma olsaydı, o zaman qəzet diskursunda biz, kişilərin az danışqan, daha aşağı səviyyəli kommunikasiya vərdişlərinə malik olmasını metaforik dillə səciyyələndirən ifadələrə təsadüf edərdik. Lakin reallıq dünyanın androsentrik qavrayışının dildəki inkiasını təsbit etməyi qaçılmaz edir və bu səbəbdən də biz, gender araşdırmalarının ikinci mərhələsindəki proseslərin hələ də aktuallıq kəsb etməkdə olmasının acı gerçəkliyini təsbit etmək məcburiyyətində qalırıq.

Onu da deyək ki, müasir ingilisdilli qəzet diskursunda androsentrizm termini və onunla əlaqəli konsept yetərincə aktullığa malikdir və bu konseptlə bağlı anlayış və ifadələr istər ABŞ, istərsə də Britaniya qəzet diskursunda yetərincə yüksək işlənmə tezliyi nümayiş etdirməkdədir. *It asks to what extent **patriarchal oppression** and **androcentric thinking** are inherent not only in Christianity but in all religious beliefs, practices and institutions.* [18]. Bir daha əyaniliklə şahid olduğumuz kimi, androsenrizmlə bağlı anlayış və ifadələr, ümumiyyətlə, androsentriklik problemi ingilisdilli qəzet diskursu üçün işlək və aktualdır. Onu da qeyd edək ki, təqdim olunan iqtibasdakı ***patriarchal oppression*** və ***androcentric thinking*** (habelə növbəti nümunədə yer alan ***androcentric culture***) ifadələri məcazlaşdırma əsasında meydana gələn elmi terminologiyanı əhatə edir. Belə ki, həm patriarxallıq istilahı, həm də androsentriklik termini istinad etdikləri sözlərin ilkin anlamlarının məcazlaşması, semantik genişlənməsi əsasında meydana gəlmiş gender terminologiyası nümunələrini təcəssüm etdidirirlər.

*In this probing critique of "**androcentric culture**," pioneering feminist Charlotte Perkins Gilman analyzes with wit and insight the many negative effects of male domination...* [17].

Eləcə də qəzet diskursunda androsentrizmlə bağlı yaranan qeyri-terminoloji məcazlaşmaların da yüksək işləkliyini müşahidə edirik. Məsələn: *It is describing **the poison of patriarchy** as it drips into the body politic of what parades under the banner of civilisation.* [16]. Bu nümunədəki metafora qəlibində patriarxal

dominatlığın toksik fəsadları zəhərin ağır təsiri ilə məcazi şəkildə müqayisə edilmiş və müvafiq bənzətmədən (*patriarxatın zəhəri*) istifadə olunmuşdur.

Məhz, bu mərhələd qadın və kişi nitqinin fərqliliklərinə əsaslı diqqət ayrılmağa başladığından, linqvistik araşdırmalar tarixində ilk dəfə olaraq, 1922-ci ildə "qadın dili" [6] terminin istifadəsi mümkün olmuşdur. Bu ifadəni dilçilik terminologiyasına görkəmli Danimarka dilçisi Otto Yespersenin daxil edilməsinə baxmayaraq, A.Kirillina linqvistik düşüncə tarixində qadın – kişi nitq fərqliliyinə diqqət çəkən digər alimlərin mövcudluğunu vurğulamışdır. Belə ki, A.Kirillinaya görə, daha öncələr fərqli terminoloji antonimlikdən istifadə edən dilçilər norma dil və (daha az inkişaf etmiş, ifadə resursları baxımından daha az təkmilləşmiş) qadın dilinin fərqləndirmişlər. Yəni, terminoloji oppozisiyadan gender asimmetrikliyi aydın şəkildə sezilən bu bölgüyə görə, normal dildən geri qalan və naqis dil kimi səciyyələndirilən qadın danışığı qeyri-normal, qeyri-məntiqi (və ya ən azından yetərli səciyyədə məntiqi olmayan), qeyri-intellektual dil kimi xarakterizə edilirdi [25].

Qadın və kişi idiolektləri arasında fərqlərin mövcudluğu, əslində inkaredilməz gerçəklikdir [8, s.427-442], lakin bu heç də o anlama gəlmir ki, bir idiolekt forması norma-standart qəlibini təzahür etdirdiyi halda, digəri öz yetərsizliyi və primitivliyi ilə anomalyaları, normadan sapmaları ehtiva edir.

İngilisdilli qəzet diskursunda yer alan gender mahiyyətli məcaz dil elementlərinin müqayisəli formatda təhlili onu deməyə əsas vermişdir ki, istər ABŞ-ın, istər Böyük Britaniyanın aparıcı mətbuat orqanlarında çalışan jurnalistlər cins identikliyinə görə fərqli genderlekt reallaşmasını ortaya qoya bilirlər. Sözsüz ki, bu heç də o anlama gəlmir ki, ingilisdilli qəzet diskursunda aktor kimi (iştirakçı kimi) fəaliyyət göstərən kişi müəlliflər istisnasız olaraq maskulin dominantlıq və ya hətta toksik maskulinlik mövqeyindən çıxış edirlər; qadın müəlliflər isə radikal feminizm mövqeyini, hətta feministik ekstremizm mövqeyini nümyiş etdirirlər. Belə bir qəti fərqləndirmənin aparılması doğru olmasa da və ümumiyyətlə, belə korrelyasiya ehtimalının özü də yanlış səciyyələndirmə kimi dəyərləndirilə bilsə də, ümumən, qadın və kişi müəlliflərin genderlektində müəyyən spesifik (cins fərqliliyinə görə ortaq və qarşı cinsə nəzərən isə ziddiyyətli mahiyyət kəsb edən) özəlliklərin mövcudluğunu danmaq olmaz.

**Ədəbiyyat**:

1. Alkenäs, P. 'Men in Grey Suits': Androcentric Language in the House of Commons. A Corpus-Assisted Feminist Critical Discourse Analysis Linnéuniversitetet https://www.diva-portal.org/smash/get/diva2: 1674094/ FULLTEXT01. pdf
2. Allan R. Taylor, A.R. "Male" and "Female" Speech in Gros Ventre // Anthropological Linguistics Vol. 24, No. 3 (Oct., 1982), pp. 301-307 https://www.jstor.org/stable/30027845
3. Androcentric https://www.etymonline.com/word/androcentric

4. Bailey, A. H., LaFrance, M., Dovidio J.F. Implicit androcentrism: Men are human, women are gendered // Journal of Experimental Social Psychology Volume 89, July 2020 https://www.sciencedirect.com/science/article/abs/pii/S0022103119307012?via%3Dihub
5. Eckert P. Think practically and look locally: language and gender as community-based practice // Annual review of anthropology. 1992. № 21. P. 461-490. https://www.annualreviews.org/doi/10.1146/annurev.an.21.100192.002333
6. Githens, S. Earliest Discussion of the Existence of Women's Language An excerpt from "Men and Women in Conversation: An Analysis of Gender Styles in Language", Lafayette College, May 1991 https://faculty. georgetown.edu/bassr/githens/otto1922.htm
7. Hibbs, C. Androcentrism // Encyclopedia of Critical Psychology, (edit.:T.Thomas ), New York, NY: Springer New York, 2014, pp. 94–101 https://link.springer.com/referenceworkentry/10.1007/978-1-4614-5583-7_16
8. Hirschman, L. Female-Male Differences in Conversational Interaction // Language in Society, Vol. 23, No. 3 (Sep., 1994), pp. 427-442 https://www.jstor.org/stable/4168538
9. Hodgson, N. Why do women talk so much? You asked Google – here's the answer // The Guardian, 14 fevral, 2018 https://www.theguardian.com/commentisfree/2018/feb/14/why-do-women-talk-so-much-google-autocomplete
10. Kenetova, R.B., Dzuganova, L.M., Ordokova, F.M. , Abregova, A.V., , Abazova, K.A. Sociolinguistic Approach and Gender Studies in Linguistics // Journal of Positive School Psychology, 2022, Vol. 6, No. 2, pp. 2011-2016 https://journalppw.com/
11. Kirsanova, M. Androcentrism of English proverbs and Anti-Proverbs with Gender Components // Journal of Language and Education, 2018, 4(2), 68-77 https://cyberleninka.ru/article/n/androcentrism-of-english-proverbs-and-anti-proverbs-with-gender-components
12. Kochman-Haładyj, B. English proverbs – A contributive factor to the stereotype of woman // Galicia English Teachings: Old Pitfalls, Changing Attitudes and New Vistas. Rzeszów: Wydawnictwo Uniwersytetu Rzeszowskiego, ss. 60-66. https://www.academia.edu/16118784/English_proverbs_A_contributive_factor_to_the_stereotype_of_woman
13. Lemonjava, A. Word Meaning, Androcentrism, and LanguageAcquisition (Based on a survey of English Proverbs) // International Journal of Multilingual education, 2021, №19, pp.165-172 https://jlaw.tsu.ge/index.php/ijml/article/view/6725/6705
14. Nizomitdinova, Z. A. Development of Gender Studies in Linguistics // Oriental renaissance: Innovative, educational, natural and social sciences, 2022 , pp.119-121 https://cyberleninka.ru/article/n/development-of-gender-studies-in-linguistics

15. Perkins Gilman, Ch. The Man-Made World: or, Our Androcentric Culture, 1911 https://www.gutenberg.org/files/3015/3015-h/3015-h.htm
16. Rose, J. Women and Power: A Manifesto by Mary Beard review – the poison of patriarchy // The Guardian, 22 November, 2017 https://www.theguardian.com/books/2017/nov/22/women-and-power-a-manifesto-by-mary-beard-review
17. The Man-Made World...Description // The Telegraph, https://books.telegraph.co.uk/Product/Charlotte-Perkins-Gilman/The-Man-Made-World-Or-Our-Androcentric-Culture/26378102
18. Women and Spirituality : Voices of Protest and Promise // The Telegraph, 2014 https://books.telegraph.co.uk/Product/Ursula-King/Women-and-Spirituality--Voices-of-Protest-and-Promise/23326539
19. Античные теории языка и стиля. М.; Л.: Соцэкгиз, 1936. 344 с.
20. Бахронова, Д.К. Гендер и целевые концептуальные гендерные стереотипы // Гендерные исследования в гуманитарных науках, Сборник статей по материалам III международной конференции, Новосибирск: СибАк, 2015, с. 86-97
21. Гриценко Е.С. О современных тенденциях в лингвистическом изучении гендера, его концептуализации и репрезентации (на материале английского языка) // Вопросы психолингвистики, 2021, №3 (49), с. 60-73.
22. Кирилина А. В., Гаранович М. В. Гендер и гендерная лингвистика на рубеже третьего тысячелетия // Вопросы психолингвистики 2021, Научные редакторы: А. В. Кирилина; М. В. Гаранович) — Москва: Издательский Дом ЯСК, 2022. — с.7-58
23. Кирилина А.В. Гендерные исследования в лингвистике и теории коммуникации. – Москва: Росспэн, 2004. – 252 с.
24. Кирилина, А.В. Гендерные аспекты языка и коммуникации, дис….доктора филологических наук, Москва, 2000 https://www.dissercat.com/content/gendernye-aspekty-yazyka-i-kommunikatsii-0
25. Кириллина, А.В. Язык и пол (гендерная лингвистика) // Открытые лекции МГПУ 2014-2015, 5 марта, 2015 https://www.youtube.com/watch?v=tJQg35sg-4o
26. Нещеретова, Т. Т. К вопросу о происхождении и онтологической сущности грамматической категории рода // Вестник Адыгейского государственного университета. Серия 2: Филология и искусствоведение 2009, № 4, с.1-5.

**Mələk Muxtarova**

**Gender dilçiliyində androsentrizmin ifşası və onun müasir ingilisdilli qəzet diskursuna təsiri (məcaz dil elementlərinə nəzərən)**

Məqalədə gender dilçiliyinin yaranması və ilkin inkişaf mərhələləri təhlil edilir. Müəllif aşkar etmişdir ki, gender dilçiliyinin ilkin mərhələsi gender anlayışının

formalaşmasından əvvəlki dövrü əhatə edir. Bu mərhələdə qrammatik cins anlayışının gender anlayışından fərqləndirilməsi prosesi hələ də həyata keçirilməyib. Bununla belə, qeyd etmək lazımdır ki, dildə qadın və kişi prinsiplərinin müxtəlif təsvirlərinin reallığı hələ qədim zamanlardan tanınır. Növbəti mərhələdə gender dilçiliyinin ilkin nəzəri konsepsiyaları formalaşmağa başladı və bu mərhələnin ən böyük nailiyyətlərindən biri dilçilikdə demək olar ki, yekdil nəticədən irəli gəlir ki, insan dili bütövlükdə androsentrik xarakter daşıyır.. Androsentrizm reallığının, yəni kişi mərkəzli dilin aşkarlanması 1911-ci ildə nəşr olunan Charlotte Perkins Gilmanın məşhur tədqiqatına daxil edilmişdir. Androsentrizm, Gilmanın fikrincə, ətrafdakı reallığın kişi prizmasından qiymətləndirilməsinə aiddir. Aksioloji normalar, insanı ətrafdakı reallığın qavrayış sisteminin yaradıcısı statusuna yüksəldir. Müasir ingilisdilli qəzet diskursunun təhlili onu deməyə əsas verir ki, androsentrizmin ifşasından yüz ildən çox vaxt keçməsinə baxmayaraq, patriarxal dominantlıq ideyaları hələ də media mətnlərində təhlil və ya tənqid obyekti kimi mövcuddur. Maraqlıdır ki, androsentrizm ifadəsi bir sıra hallarda androsentrik xarakterli obrazlı linqvistik elementlər, o cümlədən məşhur androsentrik frazeoloji vahidlərin xatırlanması vasitəsilə öz ifadəsini tapır.

**Мелек Мухтарова**

**Разоблачение андроцентризма в гендерной лингвистике и его влияние на современный англоязычный газетный дискурс (с учетом образных языковых элементов)**

В статье анализируются этапы зарождения и начального развития гендерной лингвистики. Автор выявил то, что ранний этап гендерной лингвистики включает в себя период до становления самого понятия гендера. На этом этапе еще не был реализован процесс разграничения понятия грамматического рода от понятия гендер. Тем не менее, стоит отметить и тот факт что, реальность различных репрезентаций женского и мужского начала в языке признается еще с античных времен. На следующем этапе стали формироваться исходные теоретические концепции гендерной лингвистики. Одно из величайших достижений этого этапа связано с почти единогласным выводом в лингвистике о том, что человеческий язык в целом андроцентричен по своей природе. Раскрытие реальности андроцентризма, то есть мужецентричности языка, было включено в знаменитое исследование Шарлотты Перкинс Гилман, изданное в 1911 году. Андроцентризм, по мнению Гилмана, относится к оценке окружающей действительности через призму мужских аксиологических норм, возводящих мужчину в статус творца системы восприятия окружающей реальности. Анализ современного англоязычного газетного дискурса позволяет предположить, что, несмотря на то, что с момента разоблачения андроцентризма прошло более ста лет, идеи патриархального доминирования по-прежнему присутствуют в медиатекстах как объект анализа или критики. Интересно, что выражение андроцентризма

находит свое выражение в ряде случаев через образные языковые элементы андроцентрической природы, в том числе через упоминание популярных андроцентричных фразеологизмов.

**Malak Mukhtarova**

**Exposing androcentrism in gender linguistics and its impact on modern English-language newspaper discourse (taking into account figurative linguistic elements)**

The article analyzes the stages of the origin and initial development of gender linguistics. The author revealed that the early stage of gender linguistics includes the period before the formation of the very concept of gender. At this stage, the process of distinguishing the concept of grammatical gender from the concept of gender has not yet been implemented. However, it is worth noting the fact that the reality of different representations of the feminine and masculine principles in language has been recognized since ancient times. At the next stage, the initial theoretical concepts of gender linguistics began to form. One of the greatest achievements of this stage stems from the almost unanimous conclusion in linguistics that human language as a whole is androcentric in nature. The revelation of the reality of androcentrism, that is, male-centric language, was included in the famous study of Charlotte Perkins Gilman, published in 1911. Androcentrism, according to Gilman, refers to the assessment of the surrounding reality through the prism of male axiological norms, elevating a man to the status of the creator of the system of perception of the surrounding reality. An analysis of modern English-language newspaper discourse suggests that, despite the fact that more than a hundred years have passed since the exposure of androcentrism, ideas of patriarchal dominance are still present in media texts as an object of analysis or criticism. It is interesting that the expression of androcentrism finds its expression in a number of cases through figurative linguistic elements of androcentric nature, including through the mention of popular androcentric phraseological units.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: Elmlər doktoru, i.e.prof. Könül Abdurəhmanova tərəfindən çapa tövsiyə olunmuşdur**